Salam,

Mən Megi – Sənin Ermənistanlı dostunam. Bilirsən niyə səni özümə dost hesab edirəm? Çünki dərk edirəm ki, nə sən nə də mən ölkələrimizin bir birinə düşmən olmasında günahkarıq. Əvvəla sənə öz haqqımda danışmaq istəyirəm. Mən Ermənistanda Armavir vilayətinin Sardarapat kəndində yaşayıram. Tələbəyəm, Komitas adına Yerevan Dövlət Konservatoriyasında oxuyuram, ixtisasca klassik müğənniyəm, bu il opera müğənnisi kvalifikasiya almışam. Mahnı ifa etməyi çox sevirəm, arzularımdan biri dünya şöhrətli müğənni olmaqdır. Yeri gəlmişkən, bir azərbaycanlı tenor tanıyıram, onun adı Yusif Eyvazovdur. Çox yaxşı oxuyur, dünya şöhrətli müğənni Anna Netrebko ilə ailə qurub, mən onları İnstagramda izləyirəm, dostlarım bu fakta çox normal yanaşırlar. Bilirsən, Bakıdakı opera teatrınızın binasında olmaq çox istəyirəm, şəkillərdə görmüşəm çox gözəl teatrınız var. İstərdim bilim sənin hansı hobbilərin var, harda oxuyursan, ixtisasın nədir?

İndi keçim əsl mövzuya, mən Ermənistanda və Qarabağda sərhədyanı kəndlərdə çox olmuşam, yerli sakinərlə söhbət edib onlara bu sual vermişəm: “nə istərdiniz?” Cavab belə idi: “sülh, ona görə ki daha heç bir zaman atəş səsləri eşitməsinlər, rahatca öz həndəvərinə çıxıb gəzə bilsinlər, qorxmadan ki, bir gözəl gün biz azərbaycanlı əsgər bir güllə ilə onların həyatında son qoya bilər. Elə bir həyat istəyirlər ki, öz balalarını əsgər göndərəndə gözyaşları ilə yola salmasınlar, elə bir həyat istəyirlər ki, gecələrdə rahat yatsınlar, beyinlərində, ürəklərində vahimə yuva salmasın.

Həm sizin analarınız həm bizim analarımız istəyirlər ki, öz övladları əsgərliyə gedəndə heç bir xəsarət almadan doğma ailələrinə qayıtsınlar. Əminəm ki, sərhəd bölgələrində yaşayan sənin həmvətənlərin də eynisini istəyirlər, onlar da sülh istəyirlər. Biz müharibə istəmirik, biz sülhsevər xalqıq. Bilirəm, itkilər böyükdür, həm mənim həm də sənin sərhəddə həlak olmuş dostlarımız, qardaşlarımız var, elə bu acıya görə də bir– birimizi bağışlaya bilmirik. Əgər belə davam etsək, yeni müharibə başlaya bilər, yeni qurbanlarımız olacaq, itkilər daha böyük olacaq.

Mən başa düşürəm ki, güclə sülh təbliğ etmək mümkünsüzdür. Sülh anlaşma sayəsində bərqərar olur, nə qədər ki, biz öz içimizdə sülh yaratmamışıq ətrafımızda sülh tapa bilməyəcəyik. Əgər sən mənim məktubumu oxuyursansa deməli sən də bir addım irəliyə gedib eyni mənim istədiyimi istəyirsən. Valideynlərim həmişə danışırlar ki, biz bir zamanlar dost olmuşuq, bir birimizə qonaq gedirdik, çörək kəsirdik, uşaqlarımız bir biri ilə oynayırdılar. Əgər vaxtıyla yaxşı dost olmuşuqsa demək idi də ola bilərik. Mən inanmıram ki, bəşəriyyət müharibələri ilə o qədər sıx bağlanmışdır ki, sülh gələcəyinin gəlişi mümkünsüzdür. Mən inanıram ki, həqiqət və sevgi həlledici rol oynacacaqdır.

Sülh təbəssümdən başlayır, gəl gülümsəyək və deyək ki, bağışlamışıq.

Məktubunu səbrsizliklə gözləyirəm.

Sevgilərlə

Sənin dostun